

# Ümummilli Lider və milli-mənəvi dəyərlərimiz

**Hər bir xalqın mədəniyyəti, milli-mənəvi dəyərləri onun kimliyini, keçmişini və gələcəyini göstərən başlıca amillərdir. Çünki xalqların mənəvi inkişafında, onların milli şüurunun formalaşmasında zaman-zaman yaranmış və qorunub saxlanmış milli-mənəvi dəyərlər olduqca mühüm əhəmiyyət kəsb edir. Xalqların milli-mənəvi dəyərlərini isə onların dili, dini və adət-ənənələri, daim inkişafda olan mədəniyyəti, incəsənəti, ədəbiyyatı şərtləndirir.**

Ulu Öndər Heydər Əliyev xalqımızın milli-mənəvi dəyərlərinə yüksək qiymət verərək demişdir: "Bizim xalqımız yüz illərlə, min illərlə adət-ənənələrimizi, milli-mənəvi dəyərlərimizi yaradıbdır və bunlar indi bizim xalqımızın mənəviyyatını təşkil edən amillərdir". Sonrakı tarix göstərdi ki, Ümummilli Lider bu sözləri təsadüfən söyləməmişdir. 1969-cu il iyulun 14-də Azərbaycanda siyasi hakimiyyətə gələn Heydər Əliyev ilk gündən xalqımızın milli özünüdərki üçün bütün zəruri tədbirləri həyata keçirmiş və cəmiyyətimizin müxtəlif sahələrində insanları mənəvi yüksəlişlərə ruhlandırmış, milli-mənəvi dəyərlərimizin formalaşması, qorunması və inkişaf etdirilərək gələcək nəsillərə ötürülməsi istiqamətində olduqca mühüm addımlar atmışdır. Ulu Öndər xalqda milli heysiyyəti gücləndirmək, onu qürur və iftixar dolu şanlı keçmişinə, soykökünə qaytarmaq, habelə zəngin bədii irsini, mədəniyyətini, incəsənətini, adət-ənənələrini yaşatmaq, ana dilini inkişaf etdirmək üçün bir sıra zəruri tədbirlər həyata keçirmiş, milli-mənəvi dəyərlərimizin daim öyrənilməsini, qorunub saxlanmasını və inkişaf etdirilməsini başlıca vəzifələrdən biri kimi irəli sürmüşdür.

Çox böyük uzaqgörənliklə "Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı - Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq" deyən Ulu Öndər azərbaycançılığa milli ideologiya kimi yüksək dəyər verirdi. Mədəniyyətimizi, mənəvi dəyərlərimizi təkcə milli varlığımızın deyil, həm də siyasi varlığımızın - dövlət quruculuğu prosesinin mühüm rəmzi kimi qiymətləndirir, içindən çıxdığı xalqın tarixi keçmişini, mədəni irsini, milli-mənəvi dəyərlərini əbədi olaraq insanların qəlbinə, ürəyinə hopdurmağa çalışırdı. Cəmiyyətin bütün təbəqələrinə təlqin edirdi ki, insanın şəxsiyyət kimi formalaşmasında bu mənəvi dəyərlərin çox böyük rolu var.

Heydər Əliyev 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtdıqdan sonra yenicə yaranmağa və formalaşmağa başlayan gənc dövlətin siyasi və iqtisadi əsaslarını yaratmaqla bərabər, Azərbaycan xalqının milli-mənəvi irsini ehtiva edən ideyanın - azərbaycançılığın təşəkkül və inkişafını da daim diqqət mərkəzində saxlamışdır. Milli-mənəvi dəyərlər və azərbaycançılıq sözləri hər birimiz üçün doğma və əzizdir, ürəyimizi, qəlbimizi coşduran müqəddəs bir amaldır. Bu həm də milli ruhun, milli şüurun simvolu olaraq tarixi yaddaşın dərin köklər üstündə formalaşması və inkişaf etməsi deməkdir.

Bütün zaman və quruluşlarda milli dövlətçilik və milli-mənəvi dəyərlər həmişə bir-biri ilə sıx vəhdətdə olub. Tarixdən məlumdur ki, yalnız özünü bir millət kimi dərk edən, sınaqlardan üzüağ çıxan xalqın uğurlu sabahlara hesablanmış dolğun bir inkişaf strategiyası ola bilər. Ümummilli Lider ölkəmizə rəhbərlik etdiyi dövrlərdə bu strategiyanı yaratmaqla yanaşı, həm də çox böyük uzaqgörənliklə, məharət və bacarıqla onu həyata keçirdi, reallığa çevirdi. Böyük fəxrlə, iftixarla və qürurla "Mən fəxr edirəm ki, azərbaycanlıyam!" deyən Ulu Öndər yaşadığı bütün şərəfli ömrünü bu müqəddəs amala sərf etdi. Hələ keçmiş Sovetlər Birliyi zamanı Ulu Öndərin göstərişi ilə tariximizin qədimliyi və zənginliyinin mühüm göstəricisi olan abidələrin qorunub saxlanılması və gələcək nəsillərə ötürülməsi məqsədilə Azərbaycanın bütün bölgələrində tarix-diyarşünaslıq muzeyləri yaradıldı. Azərbaycan folklorunun daha dərindən araşdırılması, aşıq sənətinin inkişafı, milli mərasimlərimizin təbliği istiqamətində ciddi tədbirlər həyata keçirildi. Bütün görülmüş bu tədbirlər, həyata keçirilmiş layihələr milli-mənəvi dəyərlərimizin həm qorunub saxlanmasına, həm də inkişaf etdirilməsinə böyük təkan verdi.

Bir zamanlar keçmiş ittifaqın qadağalarına məruz qalmış, yasaq olunmuş milli və dini bayramlar, adət-ənənələr, müxtəlif mərasimlər xalqa qaytarıldı. Ulu Öndər hər il qədim milli bayramımız olan Novruzda xalq arasına çıxır, vətəndaşlarımızla görüşüb bayramlaşırdı. Azad, müstəqil və qüdrətli ölkədə yaşayan xalqımız Novruz sevinclərindən, bu görüşdən, bu bayramlaşmaqdan zövq alırdı. Heydər Əliyev bu tədbirləri təkcə Azərbaycan, Azərbaycan xalqı üçün deyil, bütün türk dünyası miqyasında həyata keçirirdi. Qırğızların "Manas" eposunun 1000 illik yubileyində çıxış edən Ümummilli Lider bütün türk dünyası üçün əvəzedilməz müdrik bir şəxsiyyət olduğunu bir daha sübut etdi.

Ulu Öndər Heydər Əliyev islam dini ilə bağlı olan mərasim və adətlərin də layiqincə keçirilməsi üçün hərtərəfli şəraitin yaradılması barədə müvafiq göstəriş və sərəncamlar vermişdir. 1994-cü ildə Səudiyyə Ərəbistanına rəsmi səfəri çərçivəsində müqəddəs Kəbəni ziyarət etməsi, Mirmövsüm Ağa ziyarətgahında din xadimləri və möminlərlə görüşməsi, Bibiheybət məscid-kompleksinin yenidən qurulmasına xeyir-dua verməsi Ümummilli Liderin dini-əxlaqi dəyərlərə sadiqliyinin daha bir göstəricisi idi. Heydər Əliyev milli-mənəvi dəyərlərimizlə öyünərək demişdir: "Hər xalqın öz adət-ənənəsi var, öz milli-mənəvi və dini dəyərləri var. Biz öz milli-mənəvi dəyərlərimizlə, öz dini dəyərlərimizlə, adət-ənənələrimizlə fəxr edirik".

Xalqımızın taleyində, tarixində müstəsna xidmətləri olmuş Ümummilli Liderin rəhbərlikdə olduğu illər ərzində xalqımızın milli-mənəvi dəyərlərinin, onun adət-ənənələrinin dirçəldilməsi, xüsusən islam mədəniyyəti nümunələri olan məscidlərin, tarixi memarlıq abidələrinin, ziyarətgahların bərpası ilə bağlı tədbirlərin həyata keçirilməsi onun bir daha xalqa ürəkdən bağlılığını və dini dəyərlərə sədaqətini göstərən yaddaqalan nümunələrdir. Heydər Əliyevin bayramlarda məscidlərə getməsini, dindarlarla görüşməsini, onların mənəvi ehtiyaclarına həssaslıqla yanaşmasını xalqımız böyük razılıq və minnətdarlıq hissi ilə xatırlayır.

Milli-mənəvi dəyərlərimizin qorunması, inkişaf etdirilməsi və gələcək nəsillərə çatdırılması istiqamətində zəruri işlər bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bu gün milli dəyərlərimiz həm dövlət, həm də xalq tərəfindən qorunur və inkişaf etdirilir. Çünki xalqın mövcudluğunun əsas göstəricisi olan milli-mənəvi dəyərlər onun ən qiymətli sərvətidir. Çünki milli dövlətçilik anlayışı yalnız ərazinin, maddi sərvətlərin deyil, həm də milli-mənəvi dəyərlərin qorunmasını özündə birləşdirir. Tarixi təcrübə göstərir ki, dövlətçilik hisslərinə sahib olmayan, bu hissi daim ürəyində, qəlbində yaşatmayan xalq milli dövlətini inkişaf etdirə bilməz. Bütün bu amillərə yüksək dəyər verən Prezident İlham Əliyev uğurlarımızın əsas şərtinin çox haqlı olaraq "müstəqil siyasət, milli maraqların qorunması, milli ləyaqət, milli qürur, milli və dini tolerantlıq" olduğunu bildirmişdir.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

Azərbaycan.- 2025.- 15 iyun (№ 122).- S.15.